# 50 yaşlı cavan



Əlli yaşı tamam olan hər hansı bir sənət sahibi haqqında yazı yazanda həmişə yadıma dahi sənətkarımız Üzeyir Hacıbəylinin məşhur etirafı düşür. Özünün ümumxalq sevgisi qazanmış "O olmasın, bu olsun" operettasında 50 yaşlı Məşədi İbadı qoca adlandıran ünlü bəstəkarımız sonralar, özü bu yaş həddinə çatanda etiraf etmişdir ki, 50 yaş heç də qocalıq deyilmiş, kişini nahaq biabır etmişəm. 50 yaşı olan hər kəs də təsdiq edər ki, bu həqiqətən belədir, yəni 50 yaş elə əslində cavanlığın, necə deyərlər, pik nöqtəsidir.

Bu yazımızda haqqında söz açmaq istədiyimiz Eldar müəllim də ömrünün 50-ci baharını yaşayır. Amma ya özünü könül verdiyi peşəyə həsr etdiyindənmi, ya da gəncliyində idmanla çox məşğul olduğundanmı ona ilk baxışda heç bu yaşı da vermək mümkün deyil. Çox yəqin ki, onun bu cür şux, cavan, enerjili qalmasında elə bu səbəblərin ikisinin də rolu olub. Axı ustad Şəhriyar deyirdi ki, "Könül verdiyin iş ucaldır səni, Könül vermədiyin qocaldar səni". Bir də, Eldar müəllim idmanla elə-belə deyil, peşəkar səviyyədə məşğul olub və vaxtilə idman ustası normasını ödəyib.

İdmanla uşaqlıq və ilk gənclik illərindən məşğul olsa da Eldar müəllim - Eldar Yusif oğlu Əliyev könül verdiyi jurnalistka sahəsinə sonralar - özünü müxtəlif fəaliyyətlərdə və vəzifələrdə sınadıqdan sonra gəlib. Təxminən, 16 il əvvəl onu uşaq mətbuatımızın ən uzunömürlü və nüfuzlu nəşrlərindən biri olan "Savalan" qəzetinə baş redaktor vəzifəsinə təyin ediblər. Və bu təyinatdan Eldar müəllim də, "Savalan" qəzeti də qazanıb. Eldar müəllimin qazancı bacarığı, peşəkarlığı sayəsində tez bir zamanda jurnalistka, qəzetçilik sahəsində tanınması, 78 ildir ki, gənc nəslin xidmətində olan "Savalan" qəzetinin çoxminli oxucularının məhəbbətini qazanması, qəzetin qazancı isə Eldar müəllimin timsalında işgüzar, təşəbbüskar, yenilikçi, daim arayıb, axtaran, kollektivi qəzetin qarşısında duran məqsədlərin reallaşdırılmasına məharətlə yönəldə bilən, kollektiv daxilində səmimiliyi, tələbkarlığı davranış normasına çevirən bir rəhbərə sahib olması olub.

Məhz Eldar müəllimin redaktor kimi fəaliyyətə başlamasından sonra "Savalan" özünün yeni dövrünə qədəm qoyub, qəzetin siması xeyli dəyişib, o məzmun və formaca daha yaxşı, maraqlı və oxunaqlı olub. Buna səbəb, əlbəttə, ilk növbədə Eldar müəllimin işinə yaradıcı yanaşması, müasir mətbu nəşrlər bolluğunda qəzetin öz simasını qoruyub saxlaması, oxucu marağını təmin etməsi üçün apardığı axtarışlar, kollektivdə yaradıcılıq mühitini təmin etməsidir. Eldar müəllim qəzetdə dərc olunan yazıların hər birinə böyük diqqət və həssasıqla yanaşır, çalışır ki, qəzetdə verilən hər bir material onun müxtəlif yaşa və maraq dairəsinə malik kiçik oxucularının dünyagörüşünün genişləndirilməsinə, müsbət mənəvi-əxlaqi keyfiyyətlərin formalaşmasına təsir göstərsin, onları tərbiyələndirsin, şagirdlərin fəal vətəndaşlar kimi yetişməsinə öz töhfəsini versin.

Qəzetin elə bir sayı olmaz ki, burada yaradıcı məktəblilərdən söz açılmasın, körpə balaların uğurları işıqlandırılıb təbliğ edilməsin.

Eldar müəllim gələndən sonra qəzetin mövzu dairəsi genişlənib, indi burada ölkə uşaqlarının həyatı, fəaliyyəti ilə bağlı müxtəlif informasiyalardan tutmuş onları bilgiləndirən elmi-kütləvi materiallaradək ən müxtəlif mövzularda yazılar verilir. Son illər qəzetdə hərbi-vətənpərvərlik mövzusunda yazılara xüsusilə geniş yer ayrılır. Qarabağ mövzusu ilə bağlı istər oxucu, istərsə də redaksiya əməkdaşlarının yazıları qəzetdə müntəzəm öz əksini tapır. Hərb tarixinə dair verilən silsilə yazılar Eldar Əliyevin əməyinin, təşəbbüskarlığının nəticəsidir. Onun təklifi ilə başlanan "Görkəmli şəxsiyyətlər" rubrikası "Savalan"ın daimi, oxucuların maraqla izlədiyi rubrikalarındandır. Şagirdlərin bilik səviyyəsinin yüksəldilməsinə xidmət edən "Test" rubrikası altında verilən tapşırıqlardan isə nəinki məktəblilər, hətta onların valideynləri də çox razı qalırlar. Eldar müəllimin təşəbbüsü ilə tanınmış bioloq alim Qara Mustafayevin müntəzəm olaraq qəzetin 4-cü səhifəsində "Suallara cavab" verməsi də "Savalan" oxucularının ən çox diqqətini çəkən mövzular sırasındadır. Qəzetin səhifələrində istedadlı uşaqların rəsm işlərinə bol-bol yer ayrılır.

Bir sözlə, Eldar müəllimin rəhbərliyi altında redaksiyanın bütün kollektivi çalışır ki, "Savalan" dövrün tələbləri ilə ayaqlaşsın, balaca oxucularının gündən-günə artan tələbatlarını ödəsin. Eldar müəllimə görə, qəzet informasiya daşıyıcısı olmaqla bərabər həm də insanların zövqünün formalaşdırılması, milli-mənəvi dəyərlərin, adət və ənənələrin qorunması missiyasını da uğurla yerinə yetirməlidir.

Eldar Əliyev xalqımıza məxsus ən yaxşı keyfiyyətləri özündə təcəssüm etdirən bir insandır. Sadəlik, təvazökarlıq, rəhbərlik etdiyi redaksiyanın əməkdaşlarına qayğı, dostlarla sıx ünsiyyət onun əsas xarakter xüsusiyyətlərindəndir.

Eldar müəllim həm də Uşaq və Gənclərin Xeyriyyə Fondunun prezidentidir. Fond onun rəhbərliyi altında böyüməkdə olan nəslin inkişafı, şəxsiyyət kimi formalaşması yolunda səmərəli fəaliyyət göstərir.

50 yaşlı qəhrəmanımız mehriban ailə başçısıdır. Həyat yoldaşı Kəmalə xanım onun rəhbəri olduğu fondda çalışır. Övladları tələbədir. Yusif Milli Aviasiya Akademiyasında 3-cü kursda, Rübabə isə Azərbaycan Dövlət İqtisad Universitetində 1-ci kursda oxuyur.

Azərbaycan uşaq mətbuatının fədaisi, dostumuz, həmkarımız, səmimi, qayğıkeş insan Eldar Əliyevin bu payız, daha dəqiq desək, oktyabrın 30-da 50 yaşı tamam olur. Qəhrəmanımızı doğum günü münasibətilə təbrik edir və ona bir daha xatırladırıq: 50 yaş cavanlığın pik nöqtəsi, müdrikliyin astanasıdır.

**Yusif ƏLİYEV**, *"Azərbaycan müəllimi"*